“AÇIQ HÖKUMƏT TƏRƏFDAŞLIĞI PLATFORMASI FƏALİYYƏTDƏ” Layihəsi

# Qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün əlverişli mühitin inkişafı ilə bağlı təkliflər paketinin müzakirəsi

**Dəyirmi Masa**
**16 İyun 2017**
Holiday İnn oteli, Moskva otağı

# Press – reliz

Niderland Xarici İşlər Nazirliyinin maliyyə dəstəyi ilə Avrasiya Əməkdaşlıq Fondu “Azərbaycanda İnsan Haqları, Demokratikləşmə və Yaxşı İdarəetmənin Təşviqi” Proqramını həyata keçirir. Bu Proqram çərçivəsində “AHT Platforması fəaliyyədə” layihəsi üzrə 16.06.2017-ci il tarixində Bakıda, Holiday İnn otelində **Qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün əlverişli mühitin inkişafı ilə bağlı təkliflər paketinin müzakirəsi** keçirilmişdir**.**

Məruzə ilə çıxış edən Hafiz Həsənov bildirib ki, AR Prezidentinin 27 aprel 2016-cı il tarixli Sərəncamı ilə “Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı” təsdiq edilmişdir. Burada əsas fəaliyyətlərdən biri kimi “Qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün əlverişli mühitin inkişafı ilə bağlı təkliflərin hazırlanması” nəzərdə tutulmuşdur. İndiki sənədin hazırlanmasında da məqsəd məhz həmin təkliflərin hazırlanmasında qeyri-hökumət təşkilatları tərəfindən bu prosesə dəstəyin verilməsi məqsədini güdür.

H. Həsənov sonra qeyri-hökumət təşkilatları ilə bağlı qanunvericiliyi təkmilləşdirilməsi sahəsində indiyədək həyata keçirilən fəaliyyətlər haqqında məlumat verib. Bundan sonra Qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün əlverişli mühitin inkişafı ilə bağlı təklifləri təqdim edib. Təkliflər ümumilikdə 4 hissədən ibarət olmaqla “qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün hüquqi mühitin inkişafı”, “Qeyri-hökumət təşkilatlarının qərarların qəbulu və ictimai nəzarət proseslərində iştirakının genişlənidirilməsi”, “Qeyri-hökumət təşkilatlarının xidmətlər sahəsində iştirakının gücləndirilməsi” və “Qeyri-hökumət təşkilatlarının fəaliyyətinin digər məsələləri” kimi məsələləri əhatə edib.

Məruzədən sonra iştirakçıların sualları cavablandırılıb və müzakirələr aparılıb. Qərara alınıb ki, sənəd iştirakçıların təklifləri əsasında bir qədər də təkmilləşdirildikdən sonra müvafiq dövlət orqanlarına təqdim edilsin.